Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
3 dekabr / 2020

# QAŞQA QUZU

Arif ƏRŞAD

(Hekayə)



**Sayad işdə olduğundan, poçtalyon onun adına olan məktubu anasına verdi. Sayalı məktubu poçtalyondan alıb, narahat halda həyətin o biri başında inək sağan qızını səslədi:**

- Ay Sənəm, gəl bu məktubu oxu görək kimdəndir?

Sənəm südlə dolu vedrəni əlinə alıb, belini dikəltdi. Tələsmədən vedrəni mətbəxə qoyub, geri qayıtdı. Anasının ona uzatdığı məktubu açıb, sakitcə oxumağa başladı, sonra:

- Hərbi komissarlıqdandır, Sayada gəlib, - dedi.

Sayalı narahatçılıqla soruşdu:

- Nə yazırlar?

Sənəm məktubu anasına qaytarıb mızıldandı:

- Nə yazacaqlar, oğluvu əsgər aparırlar.

- Nə vaxt?

- İki gündən sonra, saat 9-da rayon hərbi komissarlığında olmalıdır.

Axşamtərəfi heyvan nobatından qayıdan Mehralı kişi qabağına qatdığı qoyunları tövlədə yerbəyer eləyib, həyətdəki tut ağacının altında qanıqara oturan arvadına yaxınlaşdı:

- Ay arvad, qoyunumuz doğub ki... Bəs xəbərin olmayıb, baxmamısan? Özü də erkək quzudur. Yaxşı ki bu gün onu nobata aparmamışam.

- Eh, a kişi, mən nə hayda, sən nə hayda?..

Sayadın darvazadan içəri girməsini görən Sayalı sözünü bitirməyib susdu. Mehralı arvadının susduğunu görüb, artıq ondan heç nə soruşmadı. Sayad salam verib, atasının yanındakı boş stulda əyləşdi:

- Dədə, necəsən?

- Sağ ol, ay oğul.

Sayad başı ilə anasına tərəf işarə edib, atasından soruşdu:

- Anam niyə qaş-qabağını sallayıb, xətrinə dəyməmisən?

**Mehralı kişi çiynini çəkib, ayağa qalxdı və heç bir söz demədən aramla tövləyə sarı getdi. Gözü stolun üstündəki məktuba sataşan Sayad zərfin üstündə öz adının yazıldığını görüb, məktubu açdı. Oxuyub gülümsədi:**

- Hə, məlum oldu. Ay ana, sən sevin ki, oğlunu əsgər aparırlar. İl yarım nədir ki? Bir də görəssən, əsgərliyimi qurtarıb qayıtdım. Heç narahat olma, buna görə qaş-qabağını tökmüsən?

Sayalı əlini yellədi, nəmli gözünü oğlundan gizlədib dedi:

- Əvvəlki vaxtlar olsaydı, nə vardı ki? İndi ara qarışıqdır, Allah bu ermənilərin kökünü kəssin! Necə narahat olmayım?

Qucağında balaca quzu tövlədən çıxıb onlara tərəf gələn və məsələnin nə yerdə olduğunu indicə anlayan Mehralı kişi oğluna yaxınlaşıb quzunu ona uzatdi:

- Al bax, gör nə qəşəng quzudur. Bunu özüm bəsləyəcəm, sən gələn vaxta qədər yeməli olacaq. Allah qoysa, sən sağ-salamat qayıdıb gələndə qapıda kəsib, qonum-qonşuya qonaqlıq verəcəm. İnşallah!

Sayalı da əllərini göyə qaldırıb:

- İnşallah, - dedi və axşam süfrəsini açmaq üçün ayağa qalxdı.

Sayad atasından alıb qucağında saxladığı quzunun başını tumarlayaraq dedi:

- Gör nə qəşəng gözləri var, özü də anası kimi qaşqalıdır. Dədə, sənin necə əlin gələr bunu kəsməyə. Mən bunu kəsməyə qoymayacam.

- Təki sən salamat qayıt, gör necə kəsəcəm, heç sənin xəbərin də olmayacaq…

**Sayad orta məktəbi bitirəndən sonra sənədlərini ali məktəbə versə də, qəbul ola bilməmişdi. 8 ay olardı ki qəsəbədə işə düzəlmişdi. İki ay usta yanında şəyird durduqdan sonra artıq sərbəst işləməyə başlamışdı. Aldığı əmək haqqından da narazı deyildi. İlk maaşını alıb evə gələn günü atası bir qoç kəsib elə bu ağacın altındaca qonum-qonşuya qonaqlıq vermişdi. Anası isə dükandan şokolad alıb, kənd uşaqlarına paylamışdı. Özü isə ilk maaşından ayırdığı 15 manat pula ətir alıb sinif yoldaşı Gülsümə bağışlamışdı. Bu, onun sevdiyi qıza bağışladığı ilk hədiyyə idi.**

Atasının səsi Sayadı xəyallarından ayırdı:

- Səhər qoyunları nobata ötürəndə ağ qoçu sürüyə qatma, tövlədə saxla. Günorta işdən qayıdıb kəsəcəm, axşam kabab eləyərik.

Sayad başı ilə atasının sözünü təsdiq edib, qucağındakı quzunu tövləyə aparmaq üçün ayağa qalxdı. Quzunu yerləşdirib geri qayıtdı, cib telefonunu çıxardıb saata baxdı. Sonra tələsmədən kiməsə mesay göndərdi və heç kimə heç nə demədən, sakitcə ayağa qalxıb darvazadan çıxdı. Sayalı əlində gətirdiyi süfrəni masanın üstünə sərdi, oğlunu həyətdə görməyib, samovarı qaynadan qızından soruşdu:

- Ay Sənəm, bəs qardaşın hara getdi?

- Güya bilmirsən ki, ay ana? Gülsümlə görüşə getdi.

- Ay qız, tez onu çağır, acqarnına nə xəbərdi...

Sənəm darvazaya tərəf getmək istəyirdi ki, atasının ötkəm səsini eşidib, geri qayıtdı:

- Ay qız, keç belə, işiniz yoxdu, qoy getsin. Cavan oğlandı, heç nə olmaz, bir azdan qayıdıb yeyər də.

**Gecə səhərə kimi gözünə yuxu getməyən Sayalı obaşdan yerindən qalxıb, oğlunun yol tədarükünü görməyə başladı. Sonra səhər yeməyini də hazırlayıb, masaya düzdü. Qoyunları nobata ötürüb evə qayıdan Mehralı kişi həyətdəki kranın altında əl-üzünü yuyub eyvana qalxdı:**

- Ay arvad, uşaq yola çıxır, qaşqabağını sallama. İl yarım nədir ki, quzumuz yeməli olanda gələcək, inşallah! Oyat da oğluvu, vaxt daralır, axı...

- Oyatdım, dədə, gəlir, - bunu deyən Sənəm qaynamaqda olan samovarı aynabəndə gətirmək üçün həyətə düşdü.

Səhər yeməyindən sonra Sayad onu hərbi komissarlığa qədər müşayiət etməyə heç kəsə icazə vermədi.

- Uşaq deyiləm ki, - deyib, darvazanın ağzındaca qucağında saxladığı quzunun qaşqasından öpüb, onu bacısına verdi. Atasının ona uzatdığı çantanı çiyninə

keçirib, hamıyla bir-bir görüşdü. Anası onun boynunu qucaqlayıb, iki gün bundan qabaq dediyi sözləri yenə də təkrarlamağa başladı:

- Sənə anan qurban, oğlum. Yeməyinə, içməyinə fikir ver, ac qalma. Bizim tərəflərə ağlın getməsin ey, bala, oralar dağ yeridir, əynini qalın elə, soyuqdan özünü qoru. Bizdən də nigaran qalma...

- Komandirlərinin sözündən çıxma, sən Vətəni qorumağa gedirsən, ananı, bacını qoruyursan, bizi qoruyursan. İnstituta qəbul olmasan da, heç olmasa əsgərlikdə başımızı uca elə! - bu sözləri isə atası dedi.

Sayalı ərini tərs-tərs süzdü. Sayad gülümsəyib, darvazadan çıxdı. Sayalı:

- Allah, balamı qoru, bircə oğluma qıyma, - deyib, gözünün yaşını sildi və əlində tutduğu bir qab suyu onun arxasınca atdı.

**Sayad onlardan 5-6 addım aralanıb, ayaq saxladı, geri dönüb:**

- Dədə, ürəyini heç sıxma. İnstituta hərbi xidmətdən qayıdandan sonra mütləq qəbul olacam, inşallah! Bu günümüzün tarixini yazan döyüşçülərin çoxu, bir zaman tarix dərsindən iki qiymət alanlardır, dədə, bunu unutma! Siz mənimlə fəxr edəcəksiz! - deyib, əlini havaya qaldıraraq yellədi və cavab gözləmədən yolda onu gözləyən avtobusa tərəf qaçdı.

…Təcili yardım maşınını yola salandan sonra darvazanı bağlayan Mehralı kişi həyətdə dolaşan "qaşqalı"nı tövləyə salmaq istəsə də, tuta bilmədi. Neçə gün idi ki, boynuna qırmızı lent bağlanmış "qaşqalı" elə həyətdəcə dolaşır, o biri qoyunlardan fərqli olaraq tövləyə girmək istəmirdi. Bu 7 gün ərzində vaxtlı-vaxtsız mələyən, əl-ayağa dolaşan, hərdən də boğazındakı qırmızı lenti açmaq üçün boynunu çəpərə sürtən toğluya nəinki həyətə yığılan qonum-qonşular, qonaqlar, heç Mehralı kişi özü də fikir vermirdi. Bütün günü siqareti siqarətə calayıb, bundan sonra bu dərdə necə dözüb-yaşayacağını düşünürdü. Əlindəki siqareti yerə atıb, ayağı ilə basıb, söndürdükdən sonra evə sarı düzəldi. Dəhlizdə divara vurulmuş güzgünün üstünə örtülmüş ağ mələfənin əyilmiş tərəfini düzəldib, qonaq otağına daxil oldu. Bütün divar boyu döşənmiş boş döşəkçələrin birinin üstündə oturdu. Qarşı tərəfdə, rahat yorğan-döşəkdə uyuyurmuş kimi elə oturduğu yerdəcə başını qızının çiyninə qoyaraq, yatan arvadına baxıb, dərindən bir ah çəkdi. Arvadının başına bağladığı qara örpəyinin altından çıxan saçlarının bir həftəyə necə tez ağardığını sanki indi görürmüş kimi diqqətlə baxmağa başladı. Onun üzündəki dırnaqla açılmış şırımların qaysaq bağladığını görüb, əli ilə qəfil sancan ürəyini sığalladı. Həkimlərin vurduğu iynənin təsirindən yuxulayan arvadının dodaqları sanki kiminləsə danışırmış kimi tərpənirdi.

- Sən niyə belə elədin, Sayad?

- Nə elədim ki, ana?

- Anan ölsün, daha bundan artıq nə etməliydin ki?

- Ay ana, siz mənə nə tapşırmışdız, mən onların hamısına əməl etməyə çalışdım...

- Eh, yaman çalışdın, ay oğul.

- Dedin, yemək-içməyinə fikir ver? Verdim.

- Dedim, ay oğul, dedim...

- Dedin, soyuqdan özünü qoru, qorudum.

- Dedim, ay oğul, dedim.

- Dedin, Vətəni qoru, qorudum.

- Dedim, ay oğul, dedim.

- Dedin, başımızı uca elə, elədim.

- Dedim, ay oğul, dedim. Amma mən sənə…

- Hə, düzdür. Sən mənə "şəhid olma!" demədin axı...

- Hə, düz deyirsən, demədim, bala, demədim. Allah üzünü ağ eləsin, oğul!..

Öz səsinə yuxudan oyanan Sayalı gözlərini açdı. Onsuz da bundan sonra daha yata bilməyəcəyindən ayağa qalxıb, pəncərəyə yaxınlaşdı. Hava yavaş-yavaş ağarırdı.

**Həyətə qatı duman dolmuşdu, dumanın içində "qaşqalı"nın bir cüt qara gözləri alışıb-yanırdı. Mehralı kişi əlindəki bıçaqla "qaşqalı"ya tərəf bir-iki addım atıb dayandı, arxadan gələn hənirtiyə çevrilib geri baxdı, arvadı pəncərədən ona baxırdı. Qatı dumanda Sayalının da gözləri "qaşqalı"nın gözləri kimi alışıb-yanırdı. Mehralı dərindən köks ötürdü, əlindəki bıçağı var gücü ilə dumana bürünmüş tut ağacına tərəf tolamazladı, bıçaq dumanın içində şığıyaraq, ağacın gövdəsinə sancıldı. Mehralı ağır addımlarla darvazaya tərəf gedib dumanda itdi. Darvazanı açıb, geri boylandı, arxasınca gələn "qaşqalı"nın qaşqasını son dəfə sığallayıb, onu həyətdən bayıra ötürdü. Bir an sonra "qaşqalı" da kəndin dumanına qarışdı...**

05-06-2017-ci il